| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | MGT 410, Təşkilati davranış, 6 AKTS |
| | **Departament** | Təhsil |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025-2026-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | i.ü.f.d. Kazımov Asəf Əsəd oğlu |
| | **E-mail:** | asaf.kazimov@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | Nərimanov korpusu |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | Korrekvizit | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Axundova N.F. Təşkilati davranış. Bakı 2014. 132 səh.<br>2. İsgəndərov İ. İ., Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013. 280 səh.<br>3. Solonitsina A.A. Peşə etikasi və etiket. (Tərcümə edən: X. Həsənova) Bakı-2020. 157 səh. | |
| **Kursun təsviri** | Müasir dövrdə işə götürən şəxs üçün işçinin biliyi, onun icraçılıq intizamından və instruksiyaları yerinə yetirmək hazırlığından daha vacibdir. Öyrənmək bacarığı hər şeydən daha çox qiymətləndirilməyə başlayır. Bunun nəticəsində işə götürən şəxslər və işçilər arasında münasibətlər dəyişir. Təşkilati davranışın məğzi fərdlərin, qrupların, təşkilatların davranışının sistematik, elmi analizindən ibarətdir. Bu zaman əsas məqsəd xarici mühitin təsirini nəzərə almaqla təşkilatın və fərdin fəaliyyətini inkişaf etdirməkdir. Təşkilati davranış qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsi və təşkilatın fəaliyyətinin effektivliyinin artırılması məqsədilə fərdlərin, qrupların davranışının öyrənilməsi və formalaşdırılmasını nəzərdə tutur. | |
| **Kursun məqsədləri** | Təşkilati davranış fənninin əsas məqsədi, bir təşkilat və ya quruluşda olan insanlar arasındakı münasibətləri öyrənmək, bu münasibətlərin yaranmasına istiqamətlənən səbəbləri tapmaq və iş hədəflərinə çatmada daha yaxşı nəticələr əldə etmək üçün bu münasibətlərə təsir etməkdən ibarətdir. Eyni zamanda, Təşkilati davranışın digər məqsədi, bir təşkilat mədəniyyəti formalaşdırmaq, ən yaxşı keyfiyyətlərə malik işçiləri işə almaq və bu işçilər arasında anlamlı əlaqələr qurmaq, anlaşılmazlıqları və mübahisələri həll etmək, | |

| | |
|---|---|
| | işçilərin şəxsi keyfiyyətlərini inkşaf etdirmək, sağlam və təmiz bir liderlik zənciri formalaşdırmaqdır. Təşkilati davranışın mahiyyəti, ətraf mühitin təsirini nəzərə almaqla, təşkilatın fərdi davranışını və fəaliyyətini anlamaq, qabaqcadan proqnozlaşdırmaq və təkmilləşdirmək məqsədilə, fərdlərin, qrupların, təşkilatların davranışının sistematik şəkildə elmi təhlilə cəlb olunmasından ibarətdir. Bu fənnin qarşısında dörd vəzifə durur:<br>– təsvir (əməklə bağlı müxtəlif situasiyalarda insanların davranışının sistematik təsviri);<br>– dərketmə (müəyyən şəraitdə fərdlərin etdiyi hərəkətlərin izahı);<br>– proqnozlaşdırma (vəziyyəti qabaqcadan görmək qabiliyyəti və menecerin peşəkar biliyi, habelə intuisiyası əsasında onun inkişaf etdirilməsi);<br>– müəyyən hadisə və proseslərin idarə edilməsi (iş prosesində insanların davranışının idarəedilməsi bacarığına yiyələnmə və onların fəaliyyətinin səmərəliliyinin artırılması yollarının axtarılması).<br>Beləliklə, demək olar ki, təşkilati davranış-insanın əmək fəaliyyətinin səmərəliliyinin artırılması üçün əldə edilən biliklərin praktiki istifadəsi məqsədilə, təşkilatlarda insanların (fərdlərin və qrupların) davranışını öyrənən bir elmdir. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | – İdarəetmə psoxologiyasına dair biliklərini artırmaqla ictimai, sosial münasibətləri iqtisadi və idarəetmə aspektdən təhlil edə biləcəkdir;<br>– Təşkilati davranışa aid qəbul edilən qərarların nəticələrini nəzərə almaq bacarığına malik olacaqdır;<br>– Menecment düşüncəsinə sahib olmaqla analitiktəhlilləri, o cümlədən, əmək fəaliyyətinin təşkili, insan resurslarının bu fəaliyyətin təmin olunmasında rolu və s. imkanları əsaslı şəhildə analiz edəcəkdir.<br>– Komanda işi bacarığı, problemlərin həllinə birgə yanaşmanın inkişafını təmin edəcəkdir;<br>– Bilik və bacarıqları təkmilləşdirmək üçün özünü və digərlərini qiymətləndirə biləcəkdir;<br>– Həmçinin, idarəetmədə baş verən hadisələrdən qaynaqlanan yeni situasiyalara uyğunlaşmaq bacarığı, təşəbbüskarlıq qabiliyyətini yaradır. Təşkilatlarda insan resurslarının idarə edilməsinin formalaşması və inkişafı ilə bağlı olan hər bir məsələnin dərindən dərk edilməsi və öyrənilməsinə səbəb olacaqdır;<br>– Təşkilati davranış sahəsində qanunvericiliyi öyrənəcəkdir.<br>– Psixoloji təhsilə, komanda işi bacarığı, problemlərin həllinə birgə |

| | | | |
|---|---|---|---|
| | yanaşmanın inkişafını təmin edəcəkdir.<br>– İşgüzar ünsiyyət imkanlarının genişlənməsinə nail olacaqdır. | | |
| **Tədris metodları** | Məşğələ | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| | Praktiki məsələnin təhlili | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Aktivlik** | Semestr ərzində | 5 |
| | **Davamiyyət** | Semestr ərzində | 5 |
| | **Tapşırıq (Təqdimat)** | may | 10 |
| | **Yoxlama (quiz)** | aprel, may | 10 |
| | **Aralıq imtahanı** | aprel | 30 |
| | **Final imtahanı** | iyun | 40 |
| | **Yekun** | | 100 |

**Qaydalar (Tədris siyasəti və davranış)**

**Davamiyyət**

Hər bir tələbələnin dərslərdə iştirakı zəruridir. Davamiyyət ballarının hesablanması forması:

| **Qayıblar** | | **Azalan bal** | **Aktivdə qalan bal** |
|---|---|---|---|
| **sayla** | **saatla** | | |
| 1 qb | 2 saat | 0.3 | 4.7 |
| 2 qb | 4 saat | 0.7 | 4.3 |
| 3 qb | 6 saat | 1 | 4.0 |
| 4 qb | 8 saat | 1.3 | 3.7 |
| 5 qb | 10 saat | 1.7 | 3.3 |
| 6 qb | 12 saat | 2 | 3 |
| 7 qb | 14 saat | 2.3 | 2.7 |
| **8 qb** | **16 saat** | **İmtahana buraxılmır** | |

Davamiyyət balı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “**Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili qaydaları**”nın 3.2.23-cü bəndinə əsasən fənn üzrə ayrılmış auditoriya saatının 25 faizindən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahan buraxılmır.

Qanunvericiliyin tələblərinə müvafiq olaraq, tələbələr tərəfindən təqdim ediləcək tibbi arayış yaxud hansısa bir rəsmi qaydada təqdim edilən icazə sənədi davamiyyət ballarının hesablanmasında nəzərə

| | |
|---|---|
| | alınmır.<br><br>**Aktivlik**<br>Dərsin interaktiv qaydada keçirilməsi nəzərdə tutulur. Tələbənin dərslərdə aktivliyinin qiymətləndirilməsi üçüntələbələrin dərs müddətində həyata keçiriləcək diskussiyalarda, sual-cavablarda fəal iştirak etməsi, keçirilən dərslər üzrə geniş araşdırmalar aparıb müzakirələrdə onları təqdim etməsi, verilmiş ev tapşırıqlarına hazırlaşaraq cavablandırılması və s. tələb olunur.<br><br>**Tapşırıq (Təqdimat)**<br>Semestrin əvvəlində tədqiqat xarakterli hər bir tələbə üçün bir mövzu təqdim ediləcək və 09.05.2026-cı il tarixinə kimi nəzərdə tutulmuş müddət ərzində təqdimatlar 0-10 bal şkalasında qiymətləndiriləcəkdir. Tapşırığı gecikdirən yaxud təqdim etməyən tələbənin nəticəsi 0 balla qiymətləndiriləcəkdir. Təqdimatın slayd formada təqdim edilməsi və təqdimatın strukturuna uyğun hazırlanması (giriş, alt mövzular, nəticə və təkliflər, ədəbiyyat siyahısı) mütləqdir. Təqdimatın nümunəsi elektron (slayd) formasında müəllim tərəfindən tələbələrə təqdim ediləcək, nümunədən kənar formada hazırlanmış təqdimat qəbul edilməəyəcəkdir.<br><br>**Yoxlama (quiz)**<br>Keçirilmiş mövzulara müvafiq olaraq quiz semesterdə iki dəfə, aprel və may aylarında tələbələrə yazılı formada olaraq iki açıq sual verməklə (hər bir sual 5 bal) keçirələcək. Sualların aid olduğu mövzular tələbələrə əvvəlcədən bildiriləcək.<br><br>**Aralıq imtahanı**<br>Keçirilən mövzulara aid açıq suallar formasında hər bir sual 0-6 balla qiymətləndiriləcəkdir.<br><br>**Final imtahanı**<br>Bütün mövzulara aid açıq suallar formasında hər bir sual 0-6-7-8 ballarla cəmi 40-a bərabər olan şkladа qiymətləndiriləcəkdir.<br><br>**Plagiat**<br>Plagiat digər müəlliflərin yazılarına istinad etmədən onlardan olduğu kimi istifadə edilməsidir. Plagiat edən tələbələr sıfır (0) alacaq və cərimə olunacaqlar. Tələbələr kurs işi/layihə mətnində başqa müəlliflərin yazılarından istifadə edərkən mütləq istinadlar göstərməlidirlər. |

| Cədvəl (dəyişdirilə bilər) | | | |
|---|---|---|---|
| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
| 1. | | Təşkilatlarda davranışın nəzəri- metodoloji əsasları | 1-ci mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Təşkilati davranışın fənn olaraq öyrənilməsinin əhəmiyyətini necə qiymətləndiririk. İstinad edilən mənbə: (Axundova N. F._Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. 5-14) |
| 2. | | Təşkilat bir sistem kimi | 2-ci mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Təşkilatda fəaliyyətləri planlı olaraq koordinasiya edilən insanların idarəetməyə təsirini necə qiymətləndirə bilərik?. İstinad edilən mənbə: (Axundova N. F._Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. 14-25) |
| 3. | | Şəxsiyyətin təşkilatlarda rolu və təsir imkanları | 3-cü mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Şəxsiyyətin təşkilatlarda rolunu necə yarada bilərik? İstinad edilən mənbə: (Axundova N. F._Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. 25-34) |
| 4. | | Qavrama və atribusiya prosesi | 4-cü mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Qavrama prosesinin vacibliyini necə qymətləndiririk. İstinad edilən mənbə: (Axundova N. F._Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. 34-42) |

| | | | |
|---|---|---|---|
| 5. | | Öyrənmək təşkilatlarda davranışın tədqiqat obyekti kimi | 5-ci mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktualıağı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Öyrənmək prosesinin komponentləri və təsir imkanları İstinad edilən mənbə: (Axundova N. F._Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. 42-52) |
| 6. | | Qrup, onun təşkilatda rolu və davranışı | 6-cı mövzu üzrə müazirədə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Qrup daxilində mənim mövqeyim necə ola bilər? İstinad edilən mənbə: (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013.səh 106-148) |
| 7. | | Təşkilatlarda fəaliyyətlərin motivasiyası | 7-ci mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Motivasiyanın təşkilati davranışda təsir imkanlarını necə qiymətləndiririk. İstinad edilən mənbə: İsgəndərov İ. İ. Təşkilati davranış və menecment psixologiyası. Bakı 2016. (səh 46-62) |
| **Aralıq imtahanı** | | | |
| 8. | | Təşkilatlarda etik davranışlar onun idarə edilməsi | 8-ci mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Peşə əxlaqı, iş görmə əxlaqı və iş əxlaqı arasında fərqi müəyyənləşdirin. İstinad edilən mənbə: (Solonitsina A.A. Peşə etikası və etiket. (Tərcümə edən: X. Həsənova) Bakı-2020. səh-1-34) |
| 9. | | Təşkilatda stres, onun idarəedilməsi | 9-cu mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun |

| | | | |
|---|---|---|---|
| | | | məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Stres və onun fəsadları. İstinad edilən mənbə: (İsgəndərov İ. İ., Təşkilati davranış və menecment psixologiyası. Bakı 2013.səh 86-106) |
| 10. | | Təşkilatda hakimiyyət və liderlik | 10-cu mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Təşkilatlarda liderliyin təsir imkanlarını qiymətləndirin. İstinad edilən mənbə: (Axundova N. F._Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. 75-84) |
| 11. | | Təşkilatda dəyişikliklər | 11-ci mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Təşkilatlarda dəyişikliklərin əməkdaşların davranışlarına təsirini qiymətləndirin. İstinad edilən mənbə: (Axundova N. F._Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. 75-84) |
| 12. | | İdarəetmədə kommunikasiyalar | 12-ci mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Effektiv kommunikasiyalar yolunda maneələr. İstinad edilən mənbə: (Axundova N. F._Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. 100-109) |
| 13. | | Təşkilatda mədəniyyət məsələləri | 13-cü mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Təşkilati mədəniyyətin mərhələləri. İstinad edilən mənbə: (AxundovaN. F. Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. |

| | | | |
|---|---|---|---|
| | | | 109-116. İsgəndərov İ. İ., Bakı 2013.səh 150-157) |
| 14. | | İnsan həyatında karyera | 14-cü mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: Karyeranın inkişafı məsələləri. İstinad edilən mənbə (Axundova N. F. Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. 116-122) |
| 15. | | Rəhbərin idarə qərarları | 15-ci mövzu üzrə toxunulan məsələlər haqqında müzakirə aparmaq, mövzunun məzmunu, aktuallığı və əhəmiyyəti barədə hazırlıq. Ev tapşırığının mövzusu: İdarə qərarlarının qəbulunda rəhbərlərin obyektiv və subyektiv üstünlükləri. İstinad edilən mənbə: (Axundova N. F. Təşkilati davranış_Dərs vəsaiti_Bakı, 2014. səh. 122-130). |
| **Final imtahanı** | | | |